**Təsdiq edirəm:** ____________

**Qərbi Kaspi Universitetinin**

**İcraçı Prorektoru R.H.Bağırov**

**24 dekabr 2025-ci il**

# QƏRBİ KASPİ UNİVERSİTETİ

**2026-2030-cu illər üzrə**

**STRATEJİ İNKİŞAF PLANI**

*Qərbi Kaspi Universitetinin Elmi Şurasının 24 dekabr*

*2025-ci il tarixli iclasında (protokol № 05) qəbul edilmişdir.*

**BAKI - 2025**

**QƏRBİ KASPİ UNİVERSİTETİ**

**2026-2030-cu illər üzrə**

# STRATEJİ İNKİŞAF PLANI

**BAKI - 2025**

**MÜNDƏRİCAT**


TƏQDİMAT ........................................................................................ 5

QƏRBİ KASPİ UNİVERSİTETİ haqqında........................................................ 6

1.1 FƏALİYYƏT İSTİQAMƏTLƏRİ ................................................................ 6

1.2 STRATEGİYA HAQQINDA ....................................................................... 8

1.3 MİSSİYAMIZ ......................................................................................... 8

1.4 STRATEJİ BAXIŞIMIZ ............................................................................ 9

1.5 ƏSAS DƏYƏRLƏR................................................................................. 9

STRATEJİ MƏQSƏDLƏR ..........................................................................10

Məqsəd 1: Təhsildə keyfiyyət və innovativ yanaşma ....................................10

Hədəf 1: Nəticə yönümlü təhsil modelinin və kompetensiya əsaslı təlim metodologiyalarının tədris prosesinə inteqrasiyası ...............................10

Hədəf 2: Tədris proqramlarının əmək bazarının tələbləri ilə uyğunluğunun artırılması ..............................................................................................11

Hədəf 3: Universitetin tədris və idarəetmə sisteminin beynəlxalq standartlara uyğunlaşdırılması ...........................................................................11

Məqsəd 2: Tələbə müvəffəqiyyəti və məzunların məşğulluq göstəricilərində artım .......12

Hədəf 1: Tələbələrin peşə kompetensiyalarının inkişaf etdirilməsi, karyera mentorluğu sisteminin tətbiqi .................................................................12

Hədəf 2: Tələbəyönümlü inkişaf və dəstək ...............................................12

Hədəf 3: Məzunların ixtisas üzrə məşğulluq səviyyəsinin dayanıqlı artım dinamikasının təmin edilməsi ...................................................................12

Məqsəd 3: Elmi - tədqiqat potensialının gücləndirilməsi və davamlı inkişafı ................13

Hədəf 1: Elmi Mərkəzlərin fəaliyyətinin genişləndirilməsi ...........................13

Hədəf 2: Tədqiqat üçün yaradıcı və beynəlxalq tələblərə cavab verən elmi mühitin formalaşdırılması və elmi-pedaqoji kadr hazırlığının təkmilləşdirilməsi................13

Hədəf 3: Elmi-tədqiqat fəaliyyətinin beynəlxalq səviyyədə görünürlüyünün artırılması ..............................................................................................14

Hədəf 4: İxtisaslaşmış elmi jurnalların təsis edilməsi və onların nüfuzlu beynəlxalq elmmetrik bazalarda indekslənməsi..................................................14

Məqsəd 4: Beynəlmiləlləşmə və qlobal əlaqələr ........................................................15
Hədəf 1: Universitetin beynəlxalq əlaqələrinin gücləndirilməsi ............................15
Hədəf 2: Beynəlxalq əlaqələr vasitəsilə universitetin akademik və elmi nüfuzunun qlobal səviyyədə artırılması ..............................................................15
Hədəf 3: Beynəlxalq rəqabətliliyin artırılması ....................................................16
Məqsəd 5: Rəqəmsal transformasiya və innovativ texnologiyaların tətbiqi ...................16
Hədəf 1: Rəqəmsal texnologiyaların geniş tətbiqi ...............................................16
Hədəf 2: Rəqəmsal bacarıqların inkişafı və texnologiyalardan səmərəli istifadə ...17
Məqsəd 6: Kadr potensialının planlı inkişafı və rəqabətqabiliyyətli iş mühiti ................17
Hədəf 1: Səriştəli kadr potensialının formalaşdırılması və davamlı inkişafı ...........17
Hədəf 2: Akademik heyətin elmi-pedaqoji və tədqiqat potensialının sistemli şəkildə gücləndirilməsi..........................................................................................18
Hədəf 3: Təhlükəsiz iş mühitinin formalaşdırılması .............................................18
Hədəf 4: Qiymətləndirmə və motivasiya ...........................................................18
Məqsəd 7: İnfrastrukturun gücləndirilməsi və dayanıqlılığın təmin edilməsi ................18
Hədəf 1: Maddi-texniki bazanın möhkəmləndirilməsi və müasir tələblərə uyğunlaşdırılması .........................................................................................18
Hədəf 2: Ekoloji dayanıqlılığın gücləndirilməsi və kampus infrastrukturunun davamlı inkişaf prinsipləri əsasında modernləşdirilməsi .................................................19
Hədəf 3: Maliyyə dayanıqlılığı və gəlir mənbələrinin diversifikasiyası ....................19
Məqsəd 8: Sosial məsuliyyət və ictimai əlaqələrin inkişafı..........................................20
Hədəf 1: İctimai dəyərlərə əsaslanan sosial təsir potensialının gücləndirilməsi ....20
Hədəf 2: Təhsilin gənclər arasında təbliğatı .......................................................20
Hədəf 3: İctimaiyyətlə əlaqələr sahəsində fəaliyyətin təkmilləşdirilməsi ..............20

## TƏQDİMAT

Qərbi Kaspi Universitetinin mahiyyəti, fəaliyyəti, ideoloji və tarixi nailiyyətləri haqqında sizə qısa məlumatı məmnuniyyətlə çatdırmaq istərdik. Bizim otuz beş illik tariximiz vardır ki, bu da onilliklər, hətta əsrlər ilə fəaliyyət göstərən universitetlər ilə müqayisədə çox qısa müddətdir. Lakin bu qısa müddətdə əldə etdiyimiz nailiyyətlər Qərbi Kaspi Universitetinin parlaq gələcəyinə bizi ruhlandıraraq inam verir. Qərbi Kaspi Universiteti müasir ali təhsil müəssisəsidir və gələcəkdə bu ali təhsil ocağının inkişaf etməsi üçün görüləcək işlər çoxdur.

- Biz özümüz üçün müəyyən etdiyimiz məqsədlərə doğru tədricən hərəkət edirik;
- Biz fəaliyyətimiz və əlaqələrimizi genişləndirməyə davam edirik;
- Biz bütün istiqamətlərdə müsbət dəyişiklik üçün açıq və çevikik;
- Biz mütərəqqi və zamanla birgə addım atmağa çalışırıq;
- Biz Qərbi Kaspi Universitetinin gələcəyinə optimist yanaşaraq, bütün yeni təşəbbüslərə, uğurlara inanırıq.

**Qərbi Kaspi Universitetinin Qəyyumlar Şurasının sədri,**
**Professor Hüseynqulu Bağırov**

## QƏRBİ KASPİ UNİVERSİTETİ haqqında

Qərbi Kaspi Universiteti 1991-ci ildən etibarən ali təhsil sektorunda fəaliyyət göstərən özəl ali təhsil müəssisəsidir. Universitet yarandığı gündən etibarən müasir təhsil yanaşmalarını, akademik mükəmməlliyi və cəmiyyətin ehtiyaclarına cavab verən kadr hazırlığını əsas fəaliyyət prinsipləri kimi müəyyən etmişdir. Multikultural və inklüziv akademik mühitə malik olan Qərbi Kaspi Universiteti tələbələrə bilik və bacarıqların qazanılması üçün uzunmüddətli perspektivə əsaslanan, çevik və çoxşaxəli imkanlar təqdim edir.

Universitet əmək bazarının tələblərini nəzərə almaqla, tədris proqramlarının davamlı yenilənməsini, innovativ və tələbəyönümlü təhsil modellərinin tətbiqini prioritet hesab edir. Rəqəmsal texnologiyaların tədris prosesinə inteqrasiyası, praktik yönümlü təhsil və tədqiqat fəaliyyətinin gücləndirilməsi Qərbi Kaspi Universitetinin əsas inkişaf istiqamətləri sırasındadır.

- Universitet beynəlxalq ali təhsil müəssisələri, tədqiqat mərkəzləri və sənaye tərəfdaşları ilə əməkdaşlıq əlaqələrini genişləndirir, ikili diplom proqramları, akademik mübadilə və birgə layihələr vasitəsilə qlobal təhsil məkanına inteqrasiyanı gücləndirir.
- Müasir təhsil standartlarına uyğun, qlobal əməkdaşlığı təşviq edən və beynəlxalq səviyyədə tanınan dünya səviyyəli tədrisin həyata keçirilməsi üçün müasir və əlverişli təhsil mühiti formalaşdırır.
- Akademik və inzibati fəaliyyətində universitet qlobal ali təhsil trendlərini izləyərək qabaqcıl təcrübələri tətbiq edir, davamlı inkişaf və innovativ yanaşmalar əsasında mütərəqqi universitet modelini inkişaf etdirməyə çalışır.

## 1.1 FƏALİYYƏT İSTİQAMƏTLƏRİ

### Təhsil

Qərbi Kaspi Universiteti bakalavr, magistr (o cümlədən MBA), doktorantura və ikinci ali təhsil proqramları üzrə əyani və qiyabi təhsil formalarında fəaliyyət göstərir və tədris Azərbaycan və ingilis dillərində təşkil olunur. Təhsil proqramları milli təhsil standartları ilə yanaşı, beynəlxalq ali təhsil tələbləri və əmək bazarının dəyişən ehtiyacları nəzərə alınmaqla formalaşdırılır və mütəmadi olaraq yenilənir.

Universitet müasir pedaqoji yanaşmalara əsaslanan tələbəyönümlü təhsil modelini tətbiq edir. Tədris prosesində interaktiv metodlar, praktik məşğələlər və rəqəmsal tədris platformalarından geniş istifadə olunur. Qərbi Kaspi Universiteti ömürboyu təhsil konsepsiyasını dəstəkləyərək müxtəlif təhsil proqramları, sertifikatlaşdırma və ixtisasartırma imkanları da təqdim edir.

Universitetin beynəlmiləlləşmə strategiyası çərçivəsində hər il yerli akademik heyətlə yanaşı müxtəlif ölkələrdən dəvət olunan professor və mütəxəssislər tədris prosesinə cəlb edilir. Bu,

təhsil proqramlarının beynəlxalq təcrübə ilə zənginləşdirilməsinə və tələbələrin qlobal düşüncə tərzinin formalaşdırılmasına xidmət edir.

Qərbi Kaspi Universiteti tələbələrə Erasmus+ və digər beynəlxalq akademik mübadilə proqramları vasitəsilə müxtəlif ölkələrin ali təhsil müəssisələrində qısa və uzunmüddətli təhsil və təcrübə imkanları təqdim edir. Bu proqramlar tələbələrin akademik biliklərini, dil bacarıqlarını və mədəni adaptasiya imkanlarını genişləndirərək onların beynəlxalq əmək bazarında rəqabət qabiliyyətini artırır.

**Elmi-tədqiqat fəaliyyəti**

Qərbi Kaspi Universiteti keyfiyyətli təhsil mühiti ilə yanaşı, elmi-tədqiqat fəaliyyətinin inkişafını əsas prioritet istiqamətlərindən biri kimi müəyyən etmişdir. Universitetdə tədris və tədqiqatın vəhdətinə əsaslanan yanaşma tətbiq olunur və elmi fəaliyyətin nəticələrinin cəmiyyətə və iqtisadi inkişafa töhfə verməsi əsas məqsəd kimi qarşıya qoyulur.

Universitet müasir elmi-tədqiqat infrastrukturu əsasında fəaliyyət göstərir. Elmi-tədqiqat mərkəzləri, laboratoriyalar və kafedralar akademik heyətin və doktorantların elmi araşdırmalar aparması üçün əlverişli şərait yaradır. Davamlı elmi-tədqiqat fondu elmi layihələrin maliyyələşdirilməsi, tədqiqatların aparılması və elmi əsərlərin nəşri üçün zəruri resursların təmin edilməsinə xidmət edir.

Qərbi Kaspi Universiteti elmi-tədqiqat infrastrukturunun davamlı təkmilləşdirilməsini, beynəlxalq elmi əməkdaşlıqların genişləndirilməsini və nüfuzlu elmi bazalarda dərc olunan elmi nəşrlərin sayının artırılmasını prioritet hesab edir. Akademik heyətin beynəlxalq indeksli jurnallarda nəşr olunan elmi əsərlərinin sayı ildən-ilə artır və bu istiqamətdə stimullaşdırıcı mexanizmlər tətbiq olunur.

Universitetin nəzdində fəaliyyət göstərən elmi jurnallar elmi nəticələrin yayılması, akademik müzakirələrin təşviqi və beynəlxalq elmi ictimaiyyətlə bilik mübadiləsinin aparılması üçün platforma rolunu oynayır. Bu jurnallar gənc tədqiqatçıların elmi fəaliyyətə cəlb edilməsində və elmi potensialın inkişafında mühüm əhəmiyyət daşıyır.

**Sosial xidmətlər**

Qərbi Kaspi Universiteti tələbələrin sosial, mədəni və elmi inkişafını dəstəkləyən geniş sosial xidmətlər sistemi formalaşdırmışdır. Universitetdə tələbə birlikləri, elmi cəmiyyət və könüllü qruplar fəaliyyət göstərir və bu strukturlar tələbələrin liderlik, ünsiyyət və sosial məsuliyyət bacarıqlarının inkişafına şərait yaradır.

Universitet korporativ sosial məsuliyyət prinsiplərinə əsaslanaraq cəmiyyətlə əlaqələrin gücləndirilməsinə xüsusi diqqət yetirir. İctimai problemlərin həllinə yönəlmiş layihələr, maarifləndirici tədbirlər, seminarlar və sosial təşəbbüslər universitetin cəmiyyətə verdiyi töhfələrin əsas istiqamətlərini təşkil edir. Bu fəaliyyətlər universitetin sosial missiyasını gücləndirməklə yanaşı, onun cəmiyyətlə davamlı və qarşılıqlı faydalı əlaqələr qurmasına imkan yaradır.

## 1.2 STRATEGİYA HAQQINDA

Qərbi Kaspi Universitetinin 2026–2030-cu illər üzrə strateji inkişaf strategiyası ali təhsilin qlobal inkişaf istiqamətləri, milli prioritetlər və institusional potensial nəzərə alınmaqla hazırlanmışdır. Strategiyanın hazırlanması zamanı ali təhsilin idarə olunması üzrə beynəlxalq təcrübədən, o cümlədən dövlət və özəl müəssisələrdə, tələbə və müəllimlər arasında keçirilmiş sorğu nəticələrindən istifadə olunmuşdur. Strategiya universitetin əvvəlki inkişaf mərhələlərində əldə etdiyi nailiyyətlərin möhkəmləndirilməsini, eyni zamanda innovativ və dayanıqlı universitet modelinin formalaşdırılmasını hədəfləyir.

Strategiyanın əsasını təhsildə keyfiyyətin və innovativ yanaşmaların tətbiqi, tələbələrin uğur və nailiyyətlərinin eləcə də məzunların məşğulluğunun artırılması, ömürboyu təhsil imkanlarının genişləndirilməsi təşkil edir. Tədqiqat potensialının gücləndirilməsi və davamlı inkişaf prinsiplərinin tətbiqi universitetin elmi fəaliyyətinin səmərəliliyinin yüksəldilməsinə yönəlmişdir.

Beynəlmiləlləşmə və qlobal əməkdaşlığın genişləndirilməsi, beynəlxalq akademik şəbəkələrə inteqrasiya və qlobal səviyyədə tanınmanın artırılması strategiyanın əsas prioritetlərindəndir. Rəqəmsal transformasiya və innovativ texnologiyaların tətbiqi tədris, tədqiqat və idarəetmə proseslərinin səmərəliliyinin artırılmasına xidmət edir.

Strategiya çərçivəsində insan resurslarının davamlı inkişafı, rəqabətqabiliyyətli və inklüziv iş mühitinin formalaşdırılması, müasir infrastrukturun gücləndirilməsi və institusional dayanıqlılığın təmin edilməsi əsas fəaliyyət istiqamətləri kimi müəyyən edilmişdir. Bununla yanaşı, sosial məsuliyyətin artırılması və ictimai əlaqələrin gücləndirilməsi universitetin cəmiyyətlə qarşılıqlı fəaliyyətinin genişləndirilməsini və sosial dəyər yaratmasını təmin edir.

Bu strategiya Qərbi Kaspi Universitetinin qlobal ali təhsil məkanında rəqabətqabiliyyətli, innovativ və sosial məsuliyyətli ali təhsil müəssisəsi kimi mövqeyinin möhkəmləndirilməsi üçün sistemli və məqsədyönlü fəaliyyət çərçivəsi təqdim edir.

## 1.3 MİSSİYAMIZ

Universitet qlobal çağırışlara, müasir, innovativ, təhsil və tədris infrastrukturuna malik olmaqla, humanitar, sosial, mühəndislik sahələri üzrə təhsil və tədqiqatlar yolu ilə yüksəkixtisaslı mütəxəssislər hazırlamağa və beləliklə də aşağıda qeyd olunanların daimi inkişafına nail olmağı hədəfləməkdir:

- Müasir dövrdə ölkənin maraqlarını təmin edə biləcək mütəxəssislər yetişdirməklə Azərbaycanın iqtisadi, sosial və siyasi inkişafına dəstək olmaq
- Məzunların işlə təmin olunması imkanlarını artırmaq
- Xarici dil bacarıqlarının yüksək səviyyədə olmasını təmin etmək
- Sahibkarlıq bacarıqlarını artırmaq
- Peşəkar sahədə yüksək standartlara nail olmaq üçün tam təminatlı iş qabiliyyətinə malik kadrlar yetişdirmək
- Analitik təhlil bacarıqlarının inkişafı

- Elmi tədqiqatlara həvəsləndirici və təkanverici qüvvə olmaq
- Tənqidi və həll istiqamətli düşüncə tərzinin təşviqi
- Mütərəqqi olmağa çalışmaq
- Yüksək akademik yazı qabiliyyətinin təşviqi
- Yetərli ixtisas bilikləri
- Empirik təhlil bacarığı
- Müəllim-mentor və tələbə-mentor institutlarının bütün universitet üzrə formalaşdırılması
- İKT-dən istifadə bacarığı
- Liderlik qabiliyyəti və komandada işləmə bacarığı

## 1.4 STRATEJİ BAXIŞIMIZ

Regionda əmək bazarının tələblərinə cavab verən ən müasir və keyfiyyətli təhsilin və tədqiqatın mövcud olduğu universitet olmaq.

## 1.5 ƏSAS DƏYƏRLƏR

- ✓ Akademik dürüstlük
- ✓ Keyfiyyət
- ✓ Davamlı inkişaf
- ✓ Nizam-intizam
- ✓ Ətraf mühitə qarşı həssaslıq
- ✓ Hörmət
- ✓ Ləyaqət

# STRATEJİ MƏQSƏDLƏR

Qərbi Kaspi Universitetinin Strateji İnkişaf Planı səkkiz əsas strateji məqsədi əhatə edir və hər bir məqsəd üzrə konkret strateji hədəflər müəyyənləşdirilmişdir. 2026 – 2030-cu illər üzrə Strateji İnkişaf Planı əvvəlki dövrdə əldə olunmuş nailiyyətlərin möhkəmləndirilməsini təmin etməklə yanaşı, rəqəmsal transformasiya, innovativ texnologiyaların tətbiqi, təhsil və tədqiqat sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməsi, eləcə də ömürboyu təhsil imkanlarının inkişafını prioritet istiqamətlər kimi müəyyən edir.

Bu Plan qlobal ali təhsil trendləri ilə uzlaşan, dayanıqlı və inkişaf yönümlü fəaliyyət çərçivəsində universitetin təhsil keyfiyyətinin yüksəldilməsi, tədqiqat potensialının gücləndirilməsi, innovasiya mədəniyyətinin təşviqi və sosial məsuliyyətinin artırılması məqsədilə sistemli və aydın yol xəritəsi təqdim edir.

**Məqsəd 1:** Təhsildə keyfiyyət və innovativ yanaşma

**Məqsəd 2:** Tələbə müvəffəqiyyəti və məzunların məşğulluq göstəricilərində artım

**Məqsəd 3:** Tədqiqat potensialının gücləndirilməsi və davamlı inkişafı

**Məqsəd 4:** Beynəlmiləlləşmə və qlobal əlaqələr

**Məqsəd 5**: Rəqəmsal transformasiya və innovativ texnologiyaların tətbiqi

**Məqsəd 6:** İnsan resurslarının davamlı inkişafı və rəqabətqabiliyyətli iş mühiti

**Məqsəd 7:** İnfrastrukturun gücləndirilməsi və dayanıqlılığın təmin edilməsi

**Məqsəd 8:** Sosial məsuliyyət və ictimai əlaqələrin inkişafı

## Məqsəd 1: Təhsildə keyfiyyət və innovativ yanaşma

Hədəf 1: Nəticə yönümlü təhsil modelinin və kompetensiya əsaslı təlim metodologiyalarının tədris prosesinə inteqrasiyası

- Tədris proqramlarının təlim nəticələrinə əsaslanan şəkildə yenilənməsi və beynəlxalq standartlara uyğunlaşdırılması;
- Təcrübə və səriştə yönümlü öyrənmə, layihə əsaslı yanaşmaların təhsildə geniş tətbiqi;
- Modullaşdırılmış və fənlərarası öyrənmənin tətbiqi;
- Müasir interaktiv təlim metodlarının və informasiya-kommunikasiya texnologiyalarının geniş tətbiqi;
- Tədris, qiymətləndirmə və monitorinq proseslərində rəqəmsal və analitik alətlərin tətbiqi yolu ilə təhsil nəticələrinin davamlı izlənməsi;
- Tələbəyönümlü təhsil mühitinin formalaşdırılması, fərdi inkişafın dəstəklənməsi;

- Hibrid və onlayn təhsil modellərinin hüquqi-normativ çərçivəyə uyğun şəkildə tətbiqi;
- Təhsil keyfiyyətinin təminatı sisteminin nəticələr əsasında təkmilləşdirilməsi və institusional qərar qəbuletmədə tətbiqi;
- Dərs vəsaitlərinin yenilənməsi, kitabxananın ən yeni tədris materialları və elmi ədəbiyyatla zənginləşdirilməsi.

Hədəf 2:  Tədris proqramlarının əmək bazarının tələbləri ilə uyğunluğunun artırılması

- Tədris planlarının yenilənməsi prosesinə işəgötürənlərin cəlb edilməsi;
- Əmək bazarının müasir tələblərinə və yeni tendensiyalara uyğun ixtisasların müəyyənləşdirilməsi, təsis edilməsi və bu sahədə fəaliyyətin davamlı təkmilləşdirilməsi;
- Xarici ölkələrin ali təhsil müəssisələri ilə birgə ikili təhsil proqramlarının artırılması;
- Məzunların rəqabətədavamlılığının və işəgötürənlərin məmnuniyyət səviyyəsinin yüksəldilməsi istiqamətində işlək sistemin tətbiqi;
- İxtisaslar üzrə fənnin öyrənmə nəticələrinin aparıcı işəgötürənlərlə razılaşdırılması;
- Sənaye tərəfdaşlarının tədris və təcrübə prosesinə daha fəal cəlb edilməsi;
- Mütəmadi araşdırma əsasında əmək bazarının tələb və ehtiyaclarının müəyyənləşdirilməsi.

Hədəf 3: Universitetin tədris və idarəetmə sisteminin beynəlxalq standartlara uyğunlaşdırılması

- Müəllimlərin və tədqiqatçıların yerli və beynəlxalq konfranslarda, seminarlarda və müxtəlif ixtisasartırma kurslarında iştirakını təmin edən proqramların həyata keçirilməsi;
- Tədris proqramlarının beynəlxalq akkreditasiya standartlarına tam uyğunlaşdırılması;
- Universitetin beynəlxalq akkreditasiya agentlikləri tərəfindən proqram və institusional səviyyədə akkreditasiya prosesindən keçirilməsi və keyfiyyət nişanının əldə edilməsinə nail olmaq;
- İdarəetmə proseslərinin təkmilləşdirilməsinin təmin edilməsi və beynəlxalq keyfiyyət standartlarına uyğun sertifikatlaşdırılması;
- Əsas Effektivlik Göstəriciləri sisteminin tətbiqi ilə akademik və inzibati heyətin fəaliyyətinin ölçülməsi.

**Məqsəd 2: Tələbə müvəffəqiyyəti və məzunların məşğulluq göstəricilərində artım**

Hədəf 1: Tələbələrin peşə kompetensiyalarının inkişaf etdirilməsi, karyera mentorluğu sisteminin tətbiqi

- Tələbələrin fərdi inkişafını və karyera hazırlığını dəstəkləyən kompleks ekosistemin qurulması;
- Tələbələrin əmək bazarında rəqabətədavamlılığı istiqamətində mexanizmlərin təkmilləşdirilməsi;
- Təcrübə proqramları və iş imkanları ilə bağlı birbaşa dəstək;
- Tələbələrin sahibkarlıq ideyaları və startap təşəbbüslərinin stimullaşdırılması;
- Tədris və təcrübə proqramlarının əmək bazarının tələblərinə uyğunlaşdırılması məqsədilə işəgötürənlərlə əlaqələrin inkişaf etdirilməsi və aktiv tərəfdaşlıqların formalaşdırılması.

Hədəf 2: Tələbəyönümlü inkişaf və dəstək

- Tələbənin akademik, sosial və psixoloji inkişafı üçün mühitin yaradılması;
- Tələbələrin (həmçinin gənc müəllimlərin) yerli və beynəlxalq akademik birliklərlə əlaqəsinin artırılması;
- Tələbələrin universitet idarəçiliyində və qərar qəbulunda iştirakı;
- Sağlamlıq imkanları məhdud və xüsusi qayğıya ehtiyacı olan tələbələr üçün bərabər imkanlar;
- Tələbələrlə iş üzrə fəaliyyət planının hazırlanması və icrası;
- İdman və mədəniyyət tədbirlərinin təşkili;
- Tələbə Gənclər Təşkilatı, Tələbə Elmi Cəmiyyəti və maraq qrupları üzrə tələbə klublarının fəaliyyətinin genişləndirilməsi;
- Universitetdə tələbə faəllığı və könüllü iştirakçılığın təşviq edilməsi;
- Sistemli bilik yarışlarının təşkili və tələbələrin aktiv iştirakının təmin olunması;
- Tələbələrin ixtisas sahələri üzrə bilik və bacarıqlarının artırılması istiqamətində müxtəlif peşəkar kvalifikasiya proqramlarına cəlb edilməsi.

Hədəf 3: Məzunların ixtisas üzrə məşğulluq səviyyəsinin dayanıqlı artım dinamikasının təmin edilməsi

- Məzunlarla əməkdaşlıq şəbəkəsinin institusional səviyyədə inkişaf etdirilməsi;

- Məzunların məşğulluq vəziyyətinin aktiv izlənilməsi, onların karyera imkanları barədə məlumatlarının toplanması və təhlil edilməsi;
- Məzun müvəffəqiyyətini əks etdirən məlumat bazasının formalaşdırılması və məlumatların mütəmadi yenilənməsi;
- Tələbə və məzunların təcrübə və inkişaf mərkəzinin işinin yaxşılaşdırılması;
- Universitetin məzunlarının (görkəmli şəxslər, iş adamları) tələbələrlə görüşlərinin təşkili;
- Universitetin Məzunlar Assossiasiyası ilə görüşlərinin sayının artırılması.

**<u>Məqsəd 3: Elmi - tədqiqat potensialının gücləndirilməsi və davamlı inkişafı</u>**

Hədəf 1: Elmi Mərkəzlərin fəaliyyətinin genişləndirilməsi

- Elmi - tədqiqat üzrə yerli və beynəlxalq əməkdaşlıq layihələrinin genişləndirilməsi;
- Universitetin müəllimlərini birləşdirən tədqiqat şəbəkələrinin yaradılması və fəaliyyətinin gücləndirilməsi;
- Elmi-tədqiqat işlərinin yerinə yetirilməsində universitetin maddi-texniki bazasının potensial imkanlarının artırılması;
- Tədqiqat və elmi – innovativ fəaliyyət üçün maliyyə mənbələrinin cəlb edilməsi və nəşrlərin stimullaşdırılmasının təkmilləşdirilməsi;
- Elm və təhsil sahəsində yerli və beynəlxalq qrantların alınması;
- Universitet-sənaye əməkdaşlığı çərçivəsində tətbiqi tədqiqatların kommersiyalaşdırılması mexanizmlərinin qurulması və innovativ elmi nəticələrin real sektora transferinin təmin edilməsi;
- Mürəkkəb elmi və texnoloji çağırışların həlli məqsədilə müxtəlif elm sahələrinin kəsişməsində fənlərarası tədqiqat layihələrinin təşviqi;
- Universitetin fərqli elm sahələri üzrə mütəxəssislərini bir araya gətirən yerli və beynəlxalq səviyyədə müxtəlif elmi tədbirlərin təşkili;
- Akademik nüfuzun və elmi məhsuldarlığın artırılması məqsədilə tədqiqat məzuniyyəti sisteminin tətbiqi.

Hədəf 2: Tədqiqat üçün yaradıcı və beynəlxalq tələblərə cavab verən elmi mühitin formalaşdırılması və elmi-pedaqoji kadr hazırlığının təkmilləşdirilməsi

- Tələbələrə və gənc tədqiqatçılara akademik yazı bacarıqlarının inkişafına yönəlmiş təlim və konsultasiyaların təşkili məqsədilə Akademik Yazı Mərkəzinin yaradılması;

- Təhsilin tədqiqatla inteqrasiyası vasitəsilə müxtəlif təhsil səviyyələrində tələbələrin, gənc tədqiqatçıların elmi-innovativ fəaliyyətinə fəal cəlb edilməsi və tədqiqat vərdişlərinin formalaşdırılması və təkmilləşdirilməsi;
- Kitabxananın fəaliyyətinin genişləndirilməsi və beynəlxalq informasiya resurslarına çıxış imkanlarının artırılması;
- Tələbələr və gənc tədqiqatçılar üçün müasir texnoloji fürsətlər nəzərə alınmaqla informasiya savadlılığı üzrə kitabxana təlimləri və seminarlarının sayının artırılması;
- Təcrübəli tədqiqatçı (yerli və əcnəbi) müəllimlərin rəhbərliyi ilə tədqiqat işləri üzrə mentorluq modelinin tətbiqi;
- Kadr çatışmazlığı olan elmi sahələr üzrə yüksək ixtisaslı elmi mütəxəssis hazırlığının aparılması;
- Doktorantura təhsilinin keyfiyyətinin yüksəldilməsi və gənc tədqiqatçıların dəstəklənməsi proqramlarının tətbiqi;
- Tələbə Elmi Cəmiyyətinin fəaliyyətinə dəstək və tələbələrin laborator tədqiqatlara aktiv inteqrasiyası mexanizminin qurulması.

Hədəf 3: Elmi-tədqiqat fəaliyyətinin beynəlxalq səviyyədə görünürlüyünün artırılması

- Müxtəlif elmi sahələrinə dair beynəlxalq konfrans və digər elmi tədbirlərin sayının artırılması və əhatə dairəsinin genişləndirilməsi;
- Tədqiqat işlərinin nəticələrinin yüksək impakt faktorlu jurnallarda nəşrinin təşviqi;
- Multidissiplinar və tətbiqi elmi-tədqiqatların sənaye ehtiyaclarına uyğun genişləndirilməsi;
- Nüfuzlu universitetlərdən elmi rəhbərlərin seçilməsi mexanizminin qurulması;
- Dissertasiya Şuralarının fəaliyyətinin sistemləşdirilməsi;
- Elmi mövzuların (dissertasiya işləri və s.) elmin aktual problemlərinə adekvatlığının təmin edilməsi;
- Elmi-tədqiqat laboratoriyalarının və mərkəzlərin müasir texnoloji imkanlara malik olması istiqamətində inkişafı;
- Universitetə məxsus elmi və pedaqoji nəşrlərin əqli mülkiyyət hüquqlarının qorunması.

Hədəf 4: İxtisaslaşmış elmi jurnalların təsis edilməsi və onların nüfuzlu beynəlxalq elmmetrik bazalarda indekslənməsi

- Jurnalların redaksiya heyətinə nüfuzlu alimlərin cəlb edilməsi;
- Ekspert həmkarların rəyləri əsasında şəffaf qiymətləndirmə sisteminin qurulması;
- Peşəkar anti-plagiat sistemlərinin nəşr üçün təqdim edilən məqalələrə tətbiqi;
- Məqalələrin rəqəmsal mühitin tələbləri əsasında hazırlanması (DOI qeydiyyatı və s.);
- Elmi jurnalların daha çox görünürlüyü məqsədilə açıq əlyetərlik (Open Access) formatına keçid;
- Elmi nəşrlərin internet səhifəsinin beynəlxalq standartlara uyğun qurulması və müasir qəbul və nəşr mexanizmləri ilə optimallaşdırılması.

**Məqsəd 4: Beynəlmiləlləşmə və qlobal əlaqələr**

Hədəf 1: Universitetin beynəlxalq əlaqələrinin gücləndirilməsi

- Xarici tərəfdaş universitetlərlə ikili diplom və müştərək təhsil proqramlarının inkişafı;
- Regionda və qlobal səviyyədə təhsil və elm sahəsində beynəlxalq tərəfdaşlıqların sayının artırılması;
- Tələbə və akademik heyətin beynəlxalq mobillik proqramlarında iştirak imkanlarının inkişafı;
- Əcnəbi tələbələr və müəllimlər üçün Azərbaycan dilini öyrənmək imkanının yaradılması;
- Universitetin təhsil və elmi mühitində ingilis dilinin tətbiqi imkanlarının inkişaf etdirilməsi;
- Elmi-tədqiqatla əlaqədar birgə əməkdaşlıq layihələrinin və bu istiqamətdə beynəlxalq əlaqələrin effektivliyinin artırılması;
- Müəllimlərin və tədqiqatçıların beynəlxalq mübadilə proqramlarında, beynəlxalq konfranslarda, seminarlarda və müxtəlif ixtisasartırma kurslarında iştirakını təmin edən proqramlarda iştirakının təmin olunması.

Hədəf 2: Beynəlxalq əlaqələr vasitəsilə universitetin akademik və elmi nüfuzunun qlobal səviyyədə artırılması

- Akademik şəbəkələrdə və qlobal layihələrdə tələbələrin, müəllimlərin və gənc tədqiqatçıların aktiv iştirakı;
- Xarici mütəxəssislər tərəfindən keçirilən mühazirələrin (həmçinin onlayn) və beynəlxalq vebinarların intensivləşdirilməsi;
- Beynəlxalq statuslu imtahanların nəticələri əsasında tələbə qəbulu imkanlarının genişləndirilməsi;

- Əcnəbi tələbələrin sayının artırılması prosesinin təkmilləşdirilməsi və daha çox tələbə cəlb edilməsi məqsədilə universitetin marketinq strategiyasının gücləndirilməsi;
- Əcnəbi tələbələrə dəstək xidmətlərinin təkmilləşdirilməsi;
- Beynəlxalq təcrübə mübadiləsi üçün yay məktəblərinin təşkili;
- Əcnəbi tələbələrə mentorluq və yerli mühitə inteqrasiyasını təmin edən qarşılıqlı fəaliyyətini təmin edən layihə və ya sistemin tətbiqi;
- Beynəlxalq festivalların və mədəniyyət tədbirlərinin təşkili.

Hədəf 3: Beynəlxalq rəqabətliliyin artırılması

- Universitetin beynəlxalq ali təhsil müəssisələri reytinqlərində (təhsil, tədqiqat, ekoloji dayanıqlılıq və s. üzrə dünya universitetlərinin iştirak etdiyi müxtəlif reytinqlər) daha da yüksək yer tutmağa müvəffəq olmaq;
- Universitetdaxili qiymətləndirilmə sisteminin qurulması və mütəmadi keyfiyyət mexanizminin izlənilməsi;
- Təhsilin beynəlmiləlləşdirilməsi istiqamətində əcnəbi tələbə kontingentinin artırılması üzrə işlərin planlı icrası;
- İngilis dilində ixtisas proqramlarının sayının artırılması;
- Hədəf ölkələrdə universitetin təbliğatı istiqamətində tədbirlərin görülməsi;
- Xarici həmmüəlliflərlə birgə hazırlanan və yüksək impakt faktorlu (Q1, Q2 kvartilli) jurnallarda dərc olunan məqalələrin payının artırılması;
- Beynəlxalq patentlərin təşviqinin stimullaşdırılması;
- Xarici mütəxəssislərin tədris və tədqiqata fəal cəlb edilməsi;
- Xarici əmək bazarında işlə təmin olunan məzun müvəffəqiyyətlərinin izlənilməsinin təşviqi.

**<u>Məqsəd 5: Rəqəmsal transformasiya və innovativ texnologiyaların tətbiqi</u>**

Hədəf 1: Rəqəmsal texnologiyaların geniş tətbiqi

- Elektron idarəetmə sisteminin təkmilləşdirilməsi və təhsil mühitinin rəqəmsallaşdırılması sahəsində işlərin genişləndirilməsi;
- Sənəd dövriyyəsinin elektronlaşdırılması;
- Tələbələrin şəxsi akademik məlumatlarına çıxış imkanı verən mobil tətbiqin yaradılması və tətbiqi;

- Süni intellekt alətləri və ya vasitələrindən istifadə qaydaları və siyasəti nəzərə alınmaqla təhsilə effektiv inteqrasiyasını həyata keçirmək;
- İmtahan üsullarının effektivliliyinin təhlili, yeni imtahan metodlarının tətbiqi;
- Elektron kitabxana sisteminin tam qurulması və istifadəsinin təmin edilməsi;
- İstifadə edilən texnologiyalar, mövcud həllər və proseslərin rəqəmsal auditinin aparılması;
- Göstərilən elektron xidmətlərin təhlükəsizliyi və keyfiyyətinə nəzarət.

Hədəf 2: Rəqəmsal bacarıqların inkişafı və texnologiyalardan səmərəli istifadə

- İnzibati və akademik heyət üçün rəqəmsal təlimatların və ya proqramların hazırlanması;
- Texnoloji tərəfdaşlıqların qurulması;
- Müasir texnologiyalardan etik istifadənin təbliğatı və rəqəmsal savadlılığın artırılması;
- Texnoloji resursların effektiv idarə edilməsində məlumat təhlükəsizliyi və məxfiliyin qorunması;
- Enerji baxımından səmərəli texnologiyaların istifadəsinə üstünlük vermək;
- Rəqəmsal texnoloji risklərin idarə olunması.

**<u>Məqsəd 6: Kadr potensialının planlı inkişafı və rəqabətqabiliyyətli iş mühiti</u>**

Hədəf 1: Səriştəli kadr potensialının formalaşdırılması və davamlı inkişafı

- Universitetin 5 illik inkişaf strategiyasına uyğun və insan resurslarına olan ehtiyacın müəyyənləşdirilməsi istiqamətində kadr planlaması;
- Akademik və inzibati heyət üzrə yaş, ixtisas və kompetensiya analizinin aparılması;
- Universitetə yüksək ixtisaslı və peşəkar kadrların cəlb edilməsinin prioritet istiqamət kimi müəyyən edilməsi və tətbiqi;
- İnzibati heyətin işinin monitorinqi və təkmilləşdirilməsinin təşviq edilməsi;
- İnzibati heyətin müvafiq idarəetmə bacarıqlarının inkişafı;
- Universitetin dəyərlərinə əsaslanan korporativ mədəniyyət modelinin tətbiq olunması;
- Daxili kommunikasiya və əməkdaşlıq mühitinin gücləndirilməsi.

Hədəf 2: Akademik heyətin elmi-pedaqoji və tədqiqat potensialının sistemli şəkildə gücləndirilməsi

- Elmi dərəcə və tədqiqat göstəricilərinə əsaslanan işə qəbul meyarlarının təkmilləşdirilməsi;
- Akademik performansın ölçülməsi və inkişaf yönümlü qiymətləndirmə mexanizminin tətbiqi;
- Gənc müəllimlərin peşəkar inkişaf proqramlarının tətbiqi və ya genişləndirilməsi;
- Xarici müəllimlərin dərs prosesinə və elmi məsləhətçi kimi cəlb edilməsi işinin gücləndirilməsi.

Hədəf 3: Təhlükəsiz iş mühitinin formalaşdırılması

- Təhlükəsiz iş mühiti standartlarının tələblərinə uyğun qurulması və tətbiq edilməsi;
- Bu sahə üzrə mütəmadi auditlərin həyata keçirilməsi;
- Təhlükəsiz iş mühiti sertifikatının tələblərinə riayət olunması üzrə vaxtaşırı praktiki təlimlərin keçirilməsi;

Hədəf 4: Qiymətləndirmə və motivasiya

- İnklüziv və bərabər imkanlı iş mühitinin dəstəklənməsinə yönəlik təşəbbüslərin gücləndirilməsi;
- Rəqabətə əsaslanan stimullaşdırıcı təminat modelinin təkmilləşdirilməsi;
- Akademik və inzibati heyətin fəaliyyətinin qiymətləndirilməsi (tədris, tədqiqat, ictimai fəaliyyət üzrə) və motivasiya sisteminin təkmilləşdirilməsi;
- Elmi fəaliyyət və layihələr üzrə əlavə stimullaşdırma sisteminin təmin edilməsi.

**Məqsəd 7: İnfrastrukturun gücləndirilməsi və dayanıqlılığın təmin edilməsi**

Hədəf 1: Maddi-texniki bazanın möhkəmləndirilməsi və müasir tələblərə uyğunlaşdırılması

- Maddi-texniki bazanın möhkəmləndirilməsi ilə tədris və təcrübə infrastrukturunun səmərəliliyinin artırılması;
- Laboratoriyaların, avadanlıqların müasir tələblər əsasında yenilənməsi, proqram təminatı və təkmilləşdirmə işlərinin aparılması;
- Universitetin IT infrastrukturunun və şəbəkə təhlükəsizliyinin gücləndirilməsi;

- Universitetdə innovasiya ekosisteminin formalaşdırılması məqsədilə texnopark, biznes inkubator və startap təşəbbüslərinin inkişaf etdirilməsi;
- Fiziki məhdudiyyətli insanların tədris binalarında rahatlıqla hərəkət edə bilmələri üçün infrastrukturun inkişaf etdirilməsi;
- Tələbə yaşayış infrastrukturunun qurulması;
- Avadanlıq və infrastrukturun səmərəli istismarı və texniki xidmət sisteminin qurulması.

Hədəf 2:  Ekoloji dayanıqlılığın gücləndirilməsi və kampus infrastrukturunun davamlı inkişaf prinsipləri əsasında modernləşdirilməsi

- Yaşıl kampus konsepsiyasının hazırlanması və tətbiqi;
- Günəş panelləri və digər alternativ enerji mənbələrinin mərhələli tətbiqi və enerji balansında payının artırılması;
- Enerji səmərəliliyinin yüksəldilməsi (LED işıqlandırma, istilik izolyasiyası və s.);
- Su və tullantıların idarə olunmasının təkmilləşdirilməsi və təkrar emal sisteminə nəzarət;
- Karbon izinin azaldılması üzrə monitorinq və hesabatlılıq mexanizminin yaradılması;
- Ekoloji təşəbbüs və könüllülük proqramlarının təşkili.

Hədəf 3: Maliyyə dayanıqlılığı və gəlir mənbələrinin diversifikasiyası

- İqtisadi stabilliyin təmin olunması məqsədilə maliyyə planlaşdırılması və risklərin idarə olunması sisteminin gücləndirilməsi;
- Alternativ maliyyə mənbələrinin genişləndirilməsi;
- Elmi-tədqiqat və innovasiya layihələrinin kommersiyalaşdırılma potensialının artırılması;
- Elmi nəticələrin biznes sektoruna transfer mexanizminin yaradılması;
- Ödənişli peşəkar kvalifikasiya və sertifikasiya proqramlarının inkişaf etdirilməsi;
- Resursların monitorinqi və audit mexanizminin tətbiqi.

**Məqsəd 8: Sosial məsuliyyət və ictimai əlaqələrin inkişafı**

Hədəf 1: İctimai dəyərlərə əsaslanan sosial təsir potensialının gücləndirilməsi

- Regionun sosial-iqtisadi və mədəni inkişafına töhfə verən ictimai layihələrin həyata keçirilməsinə dəstək;
- Sənaye tərəfdaşları ilə əməkdaşlıq çərçivəsində sosial məsuliyyət təşəbbüslərinin dəstəklənməsi və bu istiqamətdə layihələrin sayının artırılması;
- Tələbələrin könüllülük və sosial məsuliyyət təşəbbüslərinin dəstəklənməsi;
- Məzunlarla əlaqələrin gücləndirilməsi.

Hədəf 2: Təhsilin gənclər arasında təbliğatı

- Gənclər arasında ali təhsilin və universitetin təhsil proqramlarının tanıdılması üzrə kommunikasiya kampaniyalarının təşkili;
- Açıq qapı günlərinin təşkili, orta məktəb şagirdlərinin bu tədbirlərdə iştirakının təmin olunması;
- Məktəblərdə təlim, seminar və görüşlərin keçirilməsi, şagirdlərə ixtisas seçimində dəstək, yeni ixtisasların tanıdılması;
- Universitetin və ixtisasların tanıdılması üçün müvafiq nəşrlərin hazırlanması;
- İctimaiyyət, o cümlədən valideyn və abituriyentlərin iştirakı ilə müxtəlif tədbirlərin təşkili.

Hədəf 3: İctimaiyyətlə əlaqələr sahəsində fəaliyyətin təkmilləşdirilməsi

- Universitetin marketinq strategiyası çərçivəsində təhsil sahəsində müvafiq araşdırmalar, sorğuların aparılması, beynəlxalq təcrübənin araşdırılması və tətbiqi;
- Media, ictimaiyyət və tərəfdaş təşkilatlarla kommunikasiya strategiyasının hazırlanması;
- Universitet fəaliyyətini ictimaiyyətə geniş çatdırılması, yeni layihə və uğurların işıqlandırılması, eləcə də valideyn və abituriyentlərin maarifləndirilməsi;
- Universitetin fəaliyyətinə dair məlumatların sosial şəbəkələrdə gündəlik rejimdə yenilənməsi, daha geniş auditoriyanın məlumatlandırılmasında bu şəbəkələrin imkanlarından səmərəli istifadə;
- Universitetin internet saytının gündəlik rejimdə yenilənməsi və məlumatların mütəmadi təkmilləşdirilməsi, məlumatlandırma və maarifləndirmə işlərinin genişləndirilməsi məqsədilə dolğun məzmun paylaşımlarının planlı icrası.